# DÜNYA MƏKTƏBLİLƏRİ BAKIDA YARIŞDILAR

## Beynəlxalq STEAM Azərbaycan Festivalından

## REPORTAJ

Dekabrın 4-də Elm və Təhsil Nazirliyinin dəstəyi ilə Bakı Ekspo Mərkəzində SAF 2023 - Beynəlxalq STEAM Azərbaycan Festivalının açılış mərasimi keçirilib...

Açılış mərasimində çıxış edən elm və təhsil naziri Emin Əmrullayev üçüncü ildir ki, ənənəvi olaraq keçirilən festivalın təhsil sahəsində nüfuzlu, əhəmiyyətli bir tədbir olduğunu diqqətə çatdırıb. Nazir bildirib ki, Azərbaycanın bütün bölgələrini təmsil edən 800-dən, eləcə də xarici ölkələrdən gələn 150 nəfərdən artıq iştirakçı festivala qatılıb. Emin Əmrullayev vurğulayıb ki, STEAM layihəsi məktəblərdə dəyişməli olan məzmunun yeni innovativ təhsil nümunəsidir və 4 il ərzində 100 mindən artıq azərbaycanlı şagird bu tipli müasir təhsil məzmununa cəlb edilib.

Elm və təhsil naziri qeyd edib ki, "2025-ci ildə yazılacaq yeni elm və təhsil standartlarında STEAM-ın bəzi elementlərini milli kurikulumun hissəsinə çevirməyi düşünürük. Belə ki, yeni standartlarda 3D çap, robototexnikanın bəzi elementləri texnologiya fənninin məzmununa daxil olunacaq... XXI əsr bacarıqlarının tələblərinə uyğunlaşmaq üçün qarşıda duran məqsəd gələcək nəslin ənənəvi olaraq humanitar və ya texniki yönlərə bölünməklə deyil, hərtərəfli inkişafını təmin etməkdir.

...Sonra çıxış edən "STEAM Azərbaycan" layihəsinin rəhbəri İqrar Nəzərov layihə və festival barədə ətraflı məlumat verib.

...İ.Nəzərov bildirib ki, İngiltərə, Norveç, Slovakiya, Bolqarıstan, Danimarka, Çex Respublikası, Türkiyə, Azərbaycan daxil olmaqla 8 ölkədən SAF 2023-ə 96 nəfərlik münsif heyəti qatılıb. Builki festivalda 15 kateqoriya üzrə yarışların təşkil olunacağını qeyd edən layihə rəhbəri sonda iştirakçıların 60 faizinin beynəlxalq qaydalara uyğun olaraq və 25 faizinin xüsusi kateqoriyalar üzrə mükafatlandırılacağını vurğulayıb.

Daha sonra aparıcılar Leyla Quliyeva və Ağa Nadirovun təqdimatında davam edən Beynəlxalq STEAM Azərbaycan Festivalının açılış mərasimində iştirakçı komandalar bir-bir səhnəyə dəvət olunub.

***

Dekabrın 5-də Azərbaycan Respublikası Prezidentinin sosial-iqtisadi məsələlər üzrə köməkçisi Xalid Əhədov, Azərbaycan Respublikası Prezidentinin köməkçisi — Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov, elm və təhsil naziri Emin Əmrullayev, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev, mədəniyyət naziri Adil Kərimli, müdafiə sənayesi naziri Vüqar Mustafayev Bakı Ekspo Mərkəzində olublar.

Festival çərçivəsində təşkil edilən "İnnovativ layihələr" sərgisi ilə yaxından tanış olan qonaqlara məlumat verilib ki, festivalın final mərhələsində 11 ölkəni təmsil edən 868 yerli, 159 xarici iştirakçı yarışır.

Festivalın üçüncü günündə Azərbaycan Respublikası Prezidentinin köməkçisi — Hərbi-texniki təminat məsələləri şöbəsinin müdiri Andrey Sipilin, elm və təhsil naziri Emin Əmrullayev, iqtisadiyyat naziri Mikayıl Cabbarov, səhiyyə naziri Teymur Musayev, Naxçıvan Muxtar Respublikası təhsil naziri vəzifələrinin icraçısı, nazir müavini Elxan Nəcəfov, Milli Məclisin İqtisadi Siyasət, Sənaye və Sahibkarlıq Komitəsinin sədri Tahir Mirkişili, SOCAR-ın prezidenti Rövşən Nəcəf Bakı Ekspo Mərkəzini ziyarət ediblər...

Qeyd edək ki, dekabrın 8-dək davam edəcək STEAM Festivalının keçirilməsində məqsəd STEAM əsaslı tədrisin təşviqi, şagirdlər arasında XXI əsr bacarıqlarının inkişaf etdirilməsi, yaradıcı, rəqəmsal texnologiya biliciləri olan təhsilalanların müəyyənləşdirilməsi, innovasiyalar və rəqəmsallaşma üzrə beynəlxalq təcrübənin öyrənilməsindən ibarətdir.

*"Azərbaycan müəllimi", 8 dekabr 2023-cü il*




## FESTİVALDA MƏĞLUB OLAN YOXDUR, HƏR KƏS QALİBDİR

### "Festival xoş xatirələrlə yaddaşımıza yazılacaq"

#### "Təəssüratlarımız müsbətdir, uğur qazanacağımıza ümid edirik"

*Türkiyənin Adana şəhərindən SAF 2023-ə "Boat Racing" - "Gəmi yarışması" kateqoriyası üzrə qatılan "Alesta Rov"komandasının rəhbəri İsmail Akdaş:* "Yarışmaya iki şagirdimlə qatılmışam. Layihəmiz su altında müxtəlif tapşırıqları yerinə yetirəcək qayığın nümayişindən ibarətdir... Festival çox gözəl təşkil edilib. Festivalda çox izdihamlı bir ortam var və bu da rəqabəti daha da artırır. İlk təəssüratlarımız olduqca müsbətdir və uğur qazanacağımıza çox ümid edirik".

#### "Festivalın təşkilinə görə Azərbaycana təşəkkür edirəm"

*Qazaxıstanı təmsil edən "1729-V Victorius" komandasının mentoru Eduard Kunayev:* "Bizim komandamız yarışda V5 və VEX IQ robotları təqdim edir... Bundan öncə komandamız Çində keçirilən müsabiqədə VEX IQ üzrə iştirak edərək 6-cı, bir ay qabaq isə V5 üzrə ABŞ-də keçirilən seçim çempionatında 18-ci yerə layiq görülüb. Möhtəşəm festivalın təşkilinə görə Azərbaycana təşəkkür edirəm".

#### "Möhtəşəm festivalda iştirak etdiyimə görə çox şadam"

Niderlandın Summa Kollecini təmsil edən 19 yaşlı iştirakçı Niels Teuninenvan Manen tələbədir: "Bu festivala "H2 Grand Prix PRO" kateqoriyası üzrə qatılmışıq... Yaratdığımız yanacaq hüceyrəli RC avtomobillərini digər iştirakçıların maşınları ilə yarışdıracağıq və bununla bərabər yarışımızdan böyük zövq alacağıq. Bu möhtəşəm festivalda iştirak etdiyimə görə çox şadam".

## "Festivalın birincisi olmaq bizi yeni-yeni uğurlara ruhlandırır"



### "SAF 2023-də qalib komanda olmaq bizi olduqca fərəhləndirir"

Bakı şəhəri Alı Mustafayev adına 202 nömrəli tam orta məktəbin "Techno Squids 202" komandası "FLL Challenge" kateqoriyası üzrə II yerin qalibidir. Komandanın mentoru Elmira Mirzəyeva bildirir: "...Mənim rəhbərlik etdiyim "Techno Squids 202" komandası 3 iştirakçı ilə (Əli Mirzəyev - 9-cu sinif, Həsən Həsənli və Hüseyn Hüseynli isə 8-ci sinif şagirdləridir) "First Lego League Challenge" kateqoriyası üzrə final yarışında iştirak edirdi. Bizim komandamız final yarışında Robot Oyunu üzrə 410 bal topladı, bu da yüksək nəticə idi. Komandamız SAF 2023-də Robot dizaynı üzrə II yerə layiq görüldü. SAF 2023-də komandamızla iştirak etmək və qalib komanda olaraq ayrılmaq bizi olduqca fərəhləndirir...".



### "Biz yenə qızıl medalçıyıq!"

Mingəçevir şəhərini təmsil edən "Rise&shine" komandası "VidX" kateqoriyası üzrə festivalda I yerə layiq görülüb. Komandanın mentoru Gülnar Əhmədova sevincini belə bölüşür: "Komandamızın üzvləri Arif Mahmudzadə və Rauf Məmmədovla biz ötən il SAF 2022-də iştirak edərək "Robokids" kateqoriyası üzrə qızıl medala layiq görülmüşdük. Bu il isə "VidX" kateqoriyası üzrə finalda iştirak hüququ qazandıq və nəhayət qalib gəldik... Bizim uşaqlar özlərinə o qədər əmin idilər ki, hətta yarış başlamamışdan da deyirdilər: "Biz yenə qızıl medalçıyıq!". Yarışda yığıla biləcək maksimum xal 100 idi. Bizim uşaqlar 99 xal yığdılar və birincilik qazandılar. Çəkilən əziyyətin bəhrəsini görmək həqiqətən çox qürurverici bir hissdir. Bu cür möhtəşəm festivalın birincisi olmaq bizi yeni-yeni uğurlara ruhlandırır".

## SAF 2023 qalibləri mükafatlandırılıb

**Dekabrın 8-də Elm və Təhsil Nazirliyinin dəstəyi ilə Bakı Ekspo Mərkəzində Beynəlxalq STEAM Azərbaycan Festivalı 2023-ün bağlanış mərasimi keçirilib.**

Bağlanış mərasimində Baş nazirin müavini Əli Əhmədov, elm və təhsil naziri Emin Əmrullayev, gənclər və idman naziri Fərid Qayıbov, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti İsa Həbibbəyli, Milli Məclisin İqtisadi Siyasət, Sənaye və Sahibkarlıq Komitəsinin sədri Tahir Mirkişili, millət vəkilləri, diplomatik nümayəndəliklər, ali təhsil müəssisələrinin rektorları, ictimaiyyət nümayəndələri və digər qonaqlar iştirak ediblər.

"STEAM Azərbaycan" layihəsinin rəhbəri İqrar Nəzərov çıxış edərək yarışların nəticələrinə dair hesabatı diqqətə çatdırıb.

Ardınca Beynəlxalq STEAM Azərbaycan Festivalına dair videoçarx nümayiş etdirilib.

İlkin olaraq "Yaxşıların yaxşısı" kateqoriyası üzrə qaliblər mükafatlandırılıb. Mükafatlar Baş nazirin müavini Əli Əhmədov, elm və təhsil naziri Emin Əmrullayev, gənclər və idman naziri Fərid Qayıbov tərəfindən təqdim olunub.

Sonra Baş nazirin müavini Əli Əhmədov qalibləri təbrik edərək bu yarışın istedadlı şagird və gənclərin üzə çıxarılması, onların kiçik yaşlardan bilik, bacarıqlarının artırılması, həmçinin ictimai fəallığın artması baxımından digər ölkələrdən olan həmyaşıdları ilə əlaqələr qurmaları üçün fürsət olduğunu vurğulayıb. Əli Əhmədov Beynəlxalq STEAM Festivalının Azərbaycanda keçirilməsini ölkədə elmin, təhsilin inkişafı üçün yaradılan gözəl imkan olduğunu qeyd edib və böyüməkdə olan gənc nəslin yaddaşında daim qalacağını, gələcəkdə onların uğurlarının formalaşmasına təsir edəcəyini bildirib.

Daha sonra çıxış edən elm və təhsil naziri Emin Əmrullayev "Festivalda məğlub olan yoxdur, hər kəs qalibdir" fikrini vurğulayaraq bu təhsil bayramına qoşulan hər kəsə, eyni zamanda dəstəyini və fəallığını əsirgəməyən könüllülərə təşəkkürünü bildirib...

Daha sonra digər qalib komandalara mükafatlar təqdim olunub. Beynəlxalq SAF 2023-də 27 komanda I, 73 komanda II, 67 komanda isə III yerə layiq görülüb. Xüsusi nominasiyalar üzrə isə 101 komanda qalib olub.

**Lamiyə ƏLİMƏRDANOVA**

*"Azərbaycan müəllimi", 15 dekabr 2023-cü il*